**Vergilər Nazirliyinin «Facebook» səhifəsinin bir yaşı tamam olub**

Bu gün internet resuslarının imkanları, sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib və informasiya mübadiləsi probleminə ciddi təsirini göstərib. Elektron xidmətlər sahəsində dövlət qurumları arasında öndə gedən Vergilər Nazirliyi də əhali ilə münasibətlərin canlandırılmasında elektron texnologiyanın imkanlarının imkanlarından maksimum istifadə etməyə çalışır. Vergilər Nazirliyinin «Facebook» şəbəkəsində bir il öncə fəaliyyətə başlayan rəsmi səhifəsinin bu gün 7258 üzvü var.

Bir il öncə səhifə yaradılarkən qarşıya qoyulan məqsədlərə nail olunduğunu deyən Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşı Arif Ələkbərin sözlərinə görə, Vergilər Nazirliyinin «Facebook» səhifəsinin sayəsində iş adamları vergilər haqqında lazımi məlumatlarla tanış ola bilirlər. Mütəmadi olaraq səhifədə Vergi Məcəlləsinin sahibkarları maraqlandıran maddələri barədə məlumatlar yerləşdirilir, səhifə vasitəsilə digər rəsmi saytlardakı informasiyalar vergi ödəyicilərinə çatdırılır.

Səhifə yaradılarkən qarşıya qoyulan məqsədlərdən biri də Vergilər Nazirliyinin 195 telefon-məlumat xidməti haqda məlumatı olmayan vergi ödəyicilərinə bu xidmətin funksiyalarını xatırlatmaq, dolayı yolla bu xidmətin reklamını təşkil etmək idi: «Ümumilikdə hədəfimiz vergi ödəyiciləri ilə daha yaxın informasiya mübadiləsini təmin etmək, vergi ödəyicilərini nazirliyin struktur və iş prinsipi ilə tanış etmək və məlumatı daha rahat çatdırmaq idi. Bu gün biz bu məqsədlərə nail olmuşuq. Bir tərəfdən maarifləndirmə işləri yüksək şəkildə həyata keçirilir, digər tərəfdən isə səhifə, sözün həqiqi mənasında, informasiya daşıyıcısı rolunu üzərinə götürə bilir».

A.Ələkbərin sözlərinə görə, Nazirliyin «Facebook»dakı rəsmi səhifəsi hazırda oxucuların marağını təmin etmək üçün yeni layihə də reallaşdırır: ölkədə tanınmış simalarla görüntülü ünsiyyətin hazırlanması və səhifədə yayımlanması təmin ediləcək. Xalq yazıçısı Çingiz Abdullayev, bəstəkar Eldar Mansurov, telejurnalist Etibar Babayev, şahmatçı Aynur Sofiyeva kimi şəxslərlə proqram hazırlanıb və sentyabr ayından «Facebook» vasitəsilə yayımlanacaq.

Səhifədə bir illik fəaliyyət ərzində 2 mindən çox xəbər yerləşdirilib, 1500-dən çox suala cavab verilib. Aparılan testlərin maraqlı nəticələri alınıb. Aydın olub ki, vergi ödəyiciləri digər xarici ölkələrin də vergi sistemi ilə yaxından tanış olmağa meyillidirlər. Məhz bu marağı nəzərə alaraq il ərzində əksər Avropa ölkələrinin vergi sistemi, vergi hadisələri ilə bağlı çoxlu materiallar tərcümə edilərək, səhifədə yerləşdirilib.

Xatırladaq ki, Vergilər Nazirliyin «Facebook» səhifəsi fəaliyyətə başladığı ilk ildə Avrasiya Qəzetçilər Birliyinin mükafatına layiq görülüb.

AYTƏN